# PEDAQOGİKA- ПЕДАГОГИКА

**Mobil Aslanlı Huntürk**[56]

## «ŞAH İSMAYIL VƏ GÜLZAR» DASTANINDA FİZİKİ TƏRBİYƏ MOTİVLƏRİ

Dastandan aydın olur ki, Ədil şah minbir dua, nəzir-niyaz və qurbanla yeganə oğul tapır. Yaman gözə gəlməsin deyə onu hətta on beş yaşına qədər xüsusi yerdə saxlatdırıb günəş işığından da qoruyur. Oğlan böyüyür və həqiqətən azman bir pəhləvana çevrilir. Oğul - Şah İsmayıl bir gün ov zamanı Gülzarı görür, sevir, arxasınca gedir, minbir əzab-əziyyətdən sonra öz məqsədinə çatır, üç gözəllə atasının vilayətinə dönür. Ata öz gəlinlərini ələ keçirmək üçün oğlunun gözlərini çıxartdırıb quyuya atdırır. Doğma atanın oğula qarşı belə qəddar, vəhşi münasibəti, sonra isə oğulun sağalıb atadan intiqam alması, yəni ədalətin bu şəkildə bərpa olunması dastanın çox geniş yayılmasına səbəb olmuşdur. Şübhəsiz ki, burada saraylara xas olan despotizmin, taxt-tacı ələ keçirənlərin öz övladlarına, qardaşlarına, hətta atalarına qarşı qeyri-insani münasibətlərinin bədii inikası vardır.

"Şah İsmayıl-Gülzar"ın ondan yuxan variantı mövcuddur. Variantlarda atanın adı, qəhrəmanın qalaçada rast gəldiyi ilk qızın adı, onun qardaşlannm müharibə etdikləri düşmənin adı, Ərəbzənginin adı, onun tərcümeyi-halı bir-birindən xeyli dərəcədə fərqlənir. Lakin süjet və poetik mətnlərdə elə bir ciddi aynntı duyulmur.

Variantların hamısında Şah İsmayılın gözlərini çıxartdıran, quyuya atdıran atanır. Müxtəlif variantlarda Zülal şah, Ədil şah, Fətəli xan, Abdulla xan, Aslan şah adlanan bu qansız ata qabaqca oğlunu quyuya salmaq, bu baş tutmadıqda zəhərləmək qərarına gəlir. Bu fəndlər baş tutmur, belə olduqda, oğlunun qollarını bağlatdınb gözlərini çıxartdırır. Oğul hər nə qədər:

*Uca dağlar başı dumandı, çəndi,*

*Amandı şah baba, zay etmə məni -*

deyə yalvarırsa da, ata rəhmə gəlmir. Çünki öz oğlunun gözlərinin çıxarılmasına rahat-rahat baxan bu düşgün gözləri əxlaqsızlıq, pozğunluq, şəhvət ehtirası tamamilə dumanlatmışdır. Bir varianta görə onun Gülzara, başqa varianta görə isə Ərəbzəngiyə gözü düşür. Bir variantda da deyilir ki, o özü bu üç gözəli gətirmək istəmiş, lakin gətirə bilməmişdi deyə oğlunun bu bacarığı ona ağır gəlir.

Şah İsmayılın gözlərinin sağalması da variantlarda müxtəlif cür verilir. Onun gözlərini bəzən göyərçinlər, bəzən mələklər, bəzən isə qarğa sağaldır ki, bunlardan ən qədimi - arxaik vasitə sonuncudur.

Dastanda Rəmdar Pərini qaçırtmağa gələn izdihamlı büdpərəst qoşunu ilə savaşda yüksək pəhləvanlıq rəşadəti göstərən Şah İsmayılın fiziki məharəti, fiziki-cismani yetkinliyi daha qabarıq şəkildə əks olunmuşdur. Bu hadisədən xəbər tutan Şah İsmayıl Rəmdar Pərinin yeddi qardaşının o boyda büdpərəstlərin dəstəsindəki seçmə heybətli döyüşçülərlə üzbəüz qaldığına görə dərhal vəfalı dostu Qəmərdayın yalmanına yapışaraq cəngə girir. Savaşa qızmış nər kimi girişən Şah İsmayıl barədə oxuyuruq:

Şah İsmayılam mən, varram hər yana,
Nərə çəkib indi girrəm meydana,
Çəkərəm qılıncı bularam qana,
Aman allah səndən mədəd istərəm! (1, 155).

Şah İsmayıl sözünü eləyib yeddi qardaşla büdpərəstlərin qoşununa vurdu. Bir yanda Şah İsmayıl, bir yandan Qəmərday, bir yandan yeddi qardaş onları qılıncdan keçirdilər. Büdpərəstlərin qırılanı qırıldı, qalanı qaçıb getdi».

Əsasən türkün igid və cəngavər qadınlarının fiziki tərbiyə və qəhrəmanlıq motivləri leytmotivləri kontekstində köklənmiş bu məqalənin başlıca kriteriyasını, məhz həmin məcayəyə yönəlmək qənaətindəyik.

Türkün qeyrət, namus mücəmməsi olan xanımlarından Ərəbzəngi kimi aslan ürəkli, qartal şücaətli xanımının inadından zərrə qədər dönməməsi, Şah İsmayıl tək cavanmərdin isə, fiziki hazırlığı baxımından özünə arxayınçılığı sayəsində təkidli olması bu iki qoç igidi mübarizəyə sövqe edir:

Aldı Ərəbzəngi:

Edə bilməz hər igid mənlə cəngi,
Qorxudan qaçıbdı üzünün rəngi,
Cəngə girməmişdən qorxursan sən ki,
Hər gələn burada qaş verib gedər.

Aldı Şah İsmayıl:

Yeri, ərəb, gücün gəl vermə dilə,
Əgər igidsənsə karı ver ələ,
İgid hərifinin hünərin belə,
Yol ver, ərəb, yol ver, incitmə məni! (1, 156)

Şah ismayıl istədi ki, oradan davasız-şavasız keçib getsin. Ərəbzəngi yol vermədi. Nərə çəkib ona həmlə elədi. Qılınca əl atdılar. Qılıncdan murad hasil olmadı. Əmüdə, nizəyə, kəməndə əl atdılar, yeni murad hasil olmadı. Bu minvalla axşam oldu. Onlar davanı sabaha qoydular. Ərəbzəngi Şah İsmayıla dedi:.

– Ey pəhləvan, dolaş günündə dolaş, barış günündə barış. İndi sən burada qəribsən, gəl gedək, bu axşam qonağım ol. Sabah açılsın, meydanda güləşərik. Allah ya sənə verər, ya da mənə (1, 158-159).

Dastanda fiziki tərbiyənin bəzi əsas növləri, o cümlədən fizikin təmrinlərin müxtəlif vasitələrindən istifadə edilməsinə də toxunulur. Məsələn, Sevgilisi Gülzarın fərağında olan şah, gönəmli bir intizardan sonra vüsala yetişir. Ağır məhrumiyyət və əzablardan sonra yarın sorağına qovuşan şahın yüksək mərdlik və fədakarlıq göstərməsini məhz onun pəhləvanlıq şücaət ilə əlaqələndirilməlidir. Dastanda göründüyü kimi, həm də orta əsrlərdə ümmansız dəryaları, sərhədsiz çay və gölləri balıq kimi üzən qəvvasların (üzgücülərin) fiziki bilik, bacarıq və vərdişləri də önə çəkilir. Şah İsmayıl sevimlisi Gülzar xanıma bu sayaq fikirlə:

---

[56] Ped. BDU

Mən gəlmişəm yar qalasın almağa,
Qəvvas olub dəryaları dalmağa,
Gülüzlü yarımdan murad almağa
Mənim yarım şirin dilinən gəlir (1, 165).

Öz fiziki güc və qüvvəsinə arxayınlığı sayəsində yağılarla cəng savaşına girməkdən zərrə qədər çəkinmədən, onların ağır həmləsinə nəinki mətanətlə döv gətirən, hətta onları əlində siyirmə qılınc at döşündə pərən-pərən salan Ərəbzəngi yatmış şirin şahı gecənin qəflət yuxusundan diksindirir:

…Çapar getdi, gələn indi həbəşi,
Onlar da bizimlə tutar savaşı,
Dərəyə, təpəyə, doldurar leşi,
Oyan, Şah İsmayıl, gör nələr oldu?

Çapar getdi, gələn indi firəngi,
Onlar da bizimlə tutarlar cəngi,
Qırar hamısını Ərəbzəngi,
Oyan, Şah İsmayıl, gör nələr oldu? (1, 166)

Dastanda göstərilirdi ki, Rəmdar Pərinin qardaşları Şah İsmayıla məsləhət görürlər ki, Türkmana gedən iki yoldan uzaq olsa da səlamətini seçsin. Çünki on günlük ikinci yol səlamətdir. Gələnin, gedənin malını, dövlətini soyub, özünü də öldürür. Lakin butasına qovuşmağa tələsən Şah İsmayıl ölümünü gözünün qabağına alıb qısa, təhlükəli yolla gedir. Yolda çox ciddi maneə olan Ərəbzəngiyə rast gəlir. Buradan həmin epizodun dastanda icra etdiyi funksiya – yəni Şah İsmayılın Gülzara çatmaq uğrunda çəkdiyi əzab-əziyyəti, onun məhəbbətinin sonsuzluğunu göstərmək vəzifəsi aydın olur. Ərəbzənginin əfsanəvi gücə malik yenilməz bir pəhləvan kimi təsvir edilməsi, onun döyüş keyfiyyətlərinin şişirdilməsi də qəhrəmanın nə qədər ağır imtahan qarşısında olduğunu bildirmək üçündür. Ərəbzənginin qeyri-adi qüvvəsi, döyüş məharəti, həm müxtəlif epitet və bənzətmələrlə, həm də dastanın digər surətlərinin münasibəti ilə bəlli olur. Onun ac şirə, ac qurda bənzədilməsi, nərə çəkib davaya girməsi, qoşunun qarşısına təkbaşına çıxıb pencər kimi qırması, başdan hasar, leşdən minarə tikdirməsi gözlərimiz önündə sağlam, cüssəli, heybətli bir cəngavər obrazını canlandırır. Dastanda igid, qoçaq bir bahadır tək təsvir olunan Şah İsmayılın Ərəbzəngi ilə sabahkı döyüş qarşısında yuxusunun qaçması, «Çox güclü pəhləvandı. Bir də onunla meydana girsəm yəqin ki, salamat qurtara bilməyəcəyəm, muradım gözümdə qalacaqdır» – deyə düşünməsi, onun tərəfindən iki dəfə məğlub edilməsi və qalib gəlmək üçün hiyləyə əl atması Ərəbzənginin necə bir fövqəladə qüvvət sahibi olduğundan xəbər verir. Oğlunu Ərəbzənginin meydanına göndərməli olan qoca cütçünün artıq oğlunun ölüsünə ağlayırmış kimi göz yaşı tökməsi də bunu bir daha sübut edən detaldır. Lakin Ərəbzənginin ətrafında belə bir qorxu, dəhşət və ölüm saçan halənin yaradılması yuxarıda dediyimiz vəzifənin yerinə yetirilməsinə tabe edilmişdir.

Ərəbzəngi ilə Şah İsmayıl qarşılaşan zaman dastanlarımızda tez-tez təsadüf edilən deyişmələrlə başlayırlar. Bunu hərbə-zorba adlandırmaq daha düzgün olar. Tərəflərin hər biri öz fiziki gücünü, məharətini öyür, rəqibinə rəcəz oxumaqla psixoloji təsir göstərib sarsıtmaqla, qarşıdakı döyüşdə zəfər çalmağın bəri aşdan təməlini qoyur.

Ərəbzəngi ilə Şah İsmayılın məşhur deyişməsi xalq arasında geniş yayılmış, dillər əzbəri olmuşdur:

Ərəbzəngi:

Çoxları odlayıb o yandan bəri,
İgidlər əlimdən çəkiblər zarı,
Kəllədən minarə, leşdən hasarı,
Buradan gələnlər baş verib gedər!

Aldı Şah İsmayıl:

Qaradı qaşların, Kəbə meracı,
Çəkərəm, yıxaram hasarı, burcu,
Kəsərəm başını, yoxdu əlacı,
Yol ver, ərəb, yol ver, incitmə məni (1, 158).

Dastanlarımızda belə döyüşlər adətən bir neçə mərhələdən ibarət olur. Mərhələlər istifadə olunan döyüş atributlarının – silahların növünə görə bölünür. Rəqiblər qılınca əl atırlar, qılıncdan murad hasil olmadıqda əmuda, nizəyə, kəməndə keçirlər. Dastanlarda bir qayda olaraq, döyüşlərdə rəqiblərin mücadilənin son mərhələsi güləşdir. Qılınc, əmud, nizə və sairənin köməyi ilə bir-birini yenə bilməyən rəqiblər bütün yardımçı vasitələrdən burulmaz biləklərindəki, bükülməz qollarındakı gücə, ürəklərindəki təpərə arxalanarınlar. Bu mərhələdə üstünlük gah rəqiblərdən birinə, gah da digərinə keçsə də, mütləq birinin qabiliyyəti, o birinin məğlubiyyəti ilə nəticələnir. Ərəbzəngi ilə Şah İsmayılın qarşılaşmasıda güc, qüvvət, döyüş məharəti cəhətdən üstünlük Ərəbzənginin tərəfində olur. O, iki dəfə Şah İsmayılı yerə vurub, Xəncərlə sinəsinə çökür. Lakin Şah İsmayılın dil tökməsi, «pəhləvan pəhləvanı birinci dəfə yıxanda öldürməz: ərənlər üçə deyib, üçüncü dəfə yıxsan öldürərsən» – deməsi Ərəbzəngini güzəştə getməyə məcbur edir. Burada Ərəbzəngi ürəyiyumşaq, həm də öz gücünə güvənən, dürüst döyüş aparan bir qız kimi çıxış edir. Təsadüfi deyildir ki, bu baxımdan xalqımız arasında dilimizdə «Ərəbzəngi kimi başımın üstünü alıb», «Ərəbzəngi kimi qapını ağzını kəsdirib» və s. ifadələr tez-tez işlədilir. Odur ki, bu qəbildən olan oğlan xislətli, dəcəl, qorxmaz, vurub-yıxan, fərasətli qız uşaqlarını Ərəbzəngiyə bənzədirlər.

Şah İsmayıl öz həyatını xilas etmək üçün fənd işlətməli olur. O, «əlini Ərəbzənginin polad geyiminin altına saldı, döşlərindən tutub elə sıxdı ki, Ərəbzənginin qolları boşaldı, çevrilib yerə yıxıldı» (1, 159). Lakin Ərəbzəngi Şah İsmayıldan fərqli olaraq bir qaşıq qanından ötrü rəqibinə yalvarmır, onun qarşısında alçalmır. Dastanda xalqın hüsn-rəğbətinin Ərəbzənginin tərəfindən olduğu, onan Şah İsmayıla nisbətən daha yüksək tutulduğu aşkardır.

Ərəbzəngi Şah İsmayıla öz butasına çatmaqda köməklik göstərərkən ona olan qədərsiz sədaqətini, etibarını və qeyri-adi intəhasız fiziki gücünü nümayiş etdirir. «Kitabi-Dədə Qorqud» dastanlarındakı igid, cəngavər qadınlardan fərqli olaraq Ərəbzəngi yenildikdən sonra da öz mənliyini, yürürunu, nüfuzunu, bahadırlığını saxlayır, lakin onun istiqamətini dəyişdirib başqa məcraya yönəldir. Bu dəfə onun gücü sevgililəri

birləşdirmək, onların qarşısındakı maneələri bir az əvvəl Ərəbzəngi özü həmin maneələrdən biri, həm də ən ciddisi idi. Türkmana gedən yolda Ərəbzənginin yeni-yeni keyfiyyətləri üzə çıxır. Məsələn, Gülzar və Şah İsmayıl yuxuda ikən düşmənin gəldiyini görən Ərəbzəngi onları oyatmağı qıymayıb, təkbaşına cəngə atılır. Bu kişilərə nifrət etmiş, onlara qarşı çox qəddar olmuş qızın qəlbində bir dönüş yarandığını, onun ürəyinə öz qardaşı tərəfindən vurulmuş mənəvi yaranın tədricən sağaldığını, içində bir təbəddüllat oyandığını, habelə zərif, munis, ülvü və s. kimi nəcib hisslərin baş qaldırdığını göstərir. Lakin həmin hissləri qətiyyən məhəbbət adlandırmaq olmaz. Ərəbzənginin Şah İsmayıla qıymayıb onu yuxudan oyatmaması sanki bir ananın balasına qayğısı, bir qəyyumun öz himayəsində olana nəvaziş təsirini bağışlayır.

«Şah İsmayıl» dastanındakı maraqlı qadın surətlərindən biri də Rəmdar Pəridir. Bu obrazda igidlik, qəhrəmanlıq xüsusiyyətləri olmasa da, onun üzərindən sükutla keçmək düzgün deyil. O, Ərəbzəngi ilə yanaşı Şah İsmayıla öz butasına çatmaqda kömək edən şəxsdir. Əgər Ərəbzəngi məsələləri qılıncla həll edirsə, Rəmdar Pəri rəmd ataraq gələcəyi görmək, gözlənilən təhlükələri duymaq bacarığından istifadə etməklə qəhrəmana yardım göstərir. Məsələn, Şah İsmayıl Rəmdar Pərinin verdiyi üzüyü atasının qonaqlığında onun qabağına qoyulan xörəyin içinə atmaqla zəhər olduğunu öyrənir və beləliklə ölümdən qurtarır.

Dastanda Şah İsmayılın fiziki və qüvvəsi, misilsiz hünər və şücaəti daha qabarıq əksini tapır. Bir sıra qəhrəmanlıq nümunələri göstərmiş şahın həqiqi qəhrəmanlığının şahidi olmaq üçün Ədil şah oğlunu çətin sınağa çəkir: «Oğul, çox şükür, bu qədər zəhmətdən sonra Gülzarı gətirə bildin. Eşitmişəm, yollarda çox pəhləvanlara rast gəlmisən, çoxlarını yıxmısan. De görüm, sənin gücün nəyə çatmaz? Gərək gücünü atanın gözünün qabağında da göstərəsən» (1, 168). Həddən ziyadə sadə və təvazökar olan Şah İsmayıl öz fiziki imkanlarına arxayın olsa da, atası qarşısında lovğalanmağı ədəbsizlik sayır. Bu div ürəkli, əjdaha güclü, qaplan şücaətli türk cavanmərdi nəhayət qərara gəlir ki, misilsiz bir rəşadət göstərsin: « – Mənim yeddi boyun cüt qayışına gücüm çatmaz! Ədil şah hökm elədi, yeddi boyun cüt qayışı gətirdilər. Şah İsmayılın qollarını bağladılar. Şah İsmayıl elə zor verdi ki, qayış parça-parça olub yerə töküldü.

Ədil şah dedi:

– Afərin, oğlum, de görüm, daha nəyə gücün çatmaz?

Şah İsmayıl dedi:

– Yeddi qulac sicilmə gücüm çatmaz!

Ədil şah hökm elədi, Şah İsmayılın qollarını yeddi qulac sicimlə bağladılar. Şah İsmayıl elə zor verdi ki, sicim qırıq-qırıq oldu…» (1, 168).

Güclü, cəsur, igid və s. kimi iradi-fiziki keyfiyyətlər türk ədəbi terminində türk sözünün etimoloji anlamda məhz pəhləvan, bahadır ifadəsi tək başa düşülməsidir. Çılpaq əllə şiri, ayını, pələngi boğub palaz kimi yerə sərən, öküzün buynuzundan yapışmaqla boynunu qanırıb saman çöbpü kimi sındıran, bir yumruğunu zərbəsi ilə qızmış kimi sındıran, bir yumruğunun zərbəsi ilə qızmış nəri yerə uzadan türk oğlunun cahangirliyinin qneseoloji kökləri alplığın, ərdəmliyin uzaq qərinələrdən gəldiyini xəbər verir.

**ƏDƏBİYYAT**


1. Azərbaycan dastanları, 5 cilddə, II c., toplayanı və tərtib edəni: Ə.Axundov. Bakı, Azərnəşr, 1961.
2. Məhərrəm Qasımlı. Folklor və ədəbiyyat araşdırmaları. Bakı, «Elm və təhsil», 2017.


**Key words:** Shah Khatai, Gulzar, physical qualities, physical readyness, brave, heroism

**Açar sözlər:** Şah Xətai, Gülzar, fiziki keyfiyyətlər, fiziki hazırdıq, hünər, qəhrəmanlıq

**Summary**

The presented article dents with the love saga (epos) loved by our people and Shah Ismayil and Gulzar's braveness, loyality, dignity and deep spiritual qualities. One of the main moments in the play that attracks everybody's attention is presentiny the heroes who have physical development, braveness and heroism as well.

**XÜLASƏ**

Məqalədə xalqımız tərəfindən çox sevilən bu məhəbbət dastanımızda Şah İsmayıl və Gülzarın mərdanəlikləri, qürur və ləyaqətləri, vəfa və sədaqətlikləri kimi dərin mənəvi-əxlaqi keyfiyyətləri əks olunmuşdur. Əsərdə əsas diqqəti çəkən məqamlardan biri yüksək fiziki hazırlığa, fiziki inkişafa malik olan qəhrəmanların fövqəlhünər və şücaətlərinin təqdim edilməsidir.